# Qazaxda təhsil yüksələn xətlə inkişaf edir

Ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrlərdə Azərbaycan təhsilinə və elminə çox töhfələr vermişdir. Onun şəxsi təşəbbüsü və qayğısı sayəsində yüzlərlə azərbaycanlı gənc dövlət xətti ilə dünyanın bir sıra nüfuzlu universitetlərində təhsil alaraq vətənə qayıtmışlar. Həmin kadrların elmi potensialından istər yaxın keçmişdə, istərsə də müasir dövrümüzdə ölkənin inkişafında geniş istifadə olunur. Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin də Azərbaycan təhsilinin inkişafında misilsiz xidmətləri danılmazdır.

Bu sahədə çalışanların əməkhaqqının artırılması, işə qəbulda şəffaflığın qorunması, gənc müəllimlərə olunan güzəştlər və s. təhsilə qayğının bariz nümunəsidir. Bununla yanaşı, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə respublikada köhnə, uyğunsuz, qəza vəziyyətində olan məktəb binalarının yeni, müasir məktəblərlə əvəz olunması real faktdır.

Təhsilə göstərilən bu münasibətdən ruhlanan Qazax Rayon Təhsil Şöbəsinin işçiləri öz əməli işləri ilə bu sahədə yüksək göstəricilər əldə etmişlər.

**Qazax Rayon Təhsil Şöbəsinin müdiri Nizaməddin Babanlı** ilə söhbət zamanı bildirdi ki, rayonda 34 tam orta, o cümlədən 1 məktəb-lisey, 6 ümumi orta, 7 ibtidai məktəb və 5 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. 2014-2015-ci tədris ilində ümumtəhsil məktəblərdə təhsil alan 11329 şagirdin təlim-tərbiyəsi ilə 1768 nəfər məşğul olmuşdur. Şagirdlərin bilik və bacarıqlarının üzə çıxarılması istiqamətində müvafiq işlər aparılmış və keyfiyyətli resurslardan istifadə olunmuşdur. Keçən tədris ilində təhsilin informasiyalaşdırılması sayəsində müəyyən işlər görülmüşdür. Rayonun 18 məktəbi internet şəbəkəsinə qoşulmuşdur. 2015-ci ilin yanvar ayında keçirilən fənn olimpiyadasının rayon turunda 130 şagird iştirak etmiş və zona mərhələsinə 42 şagird vəsiqə qazanmış, mart ayında Gəncə şəhərində keçirilən zona mərhələsində 2 nəfər Respublika mərhələsinə çıxmışdır. Aprel ayında Bakıda "Kempinski" otelində yekun mərhələdə 1 nəfər (Qazax ş. 2 nömrəli tam orta məktəbin X sinif şagirdi) Mirzəyev İlham Fizika fənnindən 3-cü yeri tutmuşdur. 47-ci Beynəlxalq Kimya Olimpiyadası rayon mərhələsində X-XI sinif şagirdlərindən 16 nəfər iştirak etdi. Onlardan 3 nəfəri zona mərhələsinə



vəsiqə qazandı. 2 nəfər qalib gələrək Respublika mərhələsində iştirak etdi. Onlardan 1 nəfəri—İsmayılova Səbinə (Canallı kənd tam orta məktəbin X sinif şagirdi) qalib gəldi. Bundan başqa, Slavyan Universitetinin keçirdiyi Rus dili olimpiyadasında Qazax şəhər ümumi orta məktəbin VII sinif şagirdi Bayramov Kamil və Vəlizadə Sənan 2-ci yerə çıxmışlar. "Azərpoçt" inşa müsabiqəsində Qazax şəhər 2 saylı tam orta məktəbin IX sinif şagirdi Həsənzadə Zeynəb Respublika üzrə 3-cü yeri tutmuş və pul mükafatına layiq görülmüşdür. 2013-2014-cü tədris ilində ali məktəblərə sənəd təqdim edən abituriyentlərdən 306 nəfəri tələbə adını qazanmışlar. Onlardan 7 nəfər 600-dən yuxarı, 44 nəfər 500-dən yuxarı bal toplayıblar.

Məlumdur ki, Qazax rayonu mənfur ermənilərlə həmsərhəddir. Gənclər arasında hərbi-vətənpərvərlik tərbiyəsinin aparılması təhsil işçilərinin qarşıya qoyduqları mühüm vəzifələrdən biridir. Bunun nəticəsidir ki, 2013-2014-cü tədris ilində 21 nəfər qazaxlı gənc hərbi-lisey və ali hərbi məktəbə qəbul olmuşlar.

Ölkədə idmana dövlət qayğısının nəticəsidir ki, Qazax rayonunda idman sahəsində bir çox sevindirici nəticələr mövcuddur. Belə ki, sərbəst güləş üzrə yeniyetmələrin Respublika birinciliyində Uşaq Gənclər İdman Məktəbinin (UGİM) yetirmələri Qaragözlü Elzamin, Axundov Şəmistan və Dərgahquluyev Arzu 3-cü yeri tutmuşlar. Sərbəst güləş üzrə yeniyetmələrin Respublika birinciliyində UGİM-in yetirmələri Əliyev Nicat və Bayramov Əli 3-cü yeri tutmuşlar. Qeyd etmək lazımdır ki, ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən Qazax rayonunun bir məktəbi - Şəhər 1 saylı tam orta məktəb ilin məktəbi adına layiq görülmüş, 10 min AZN pulla mükafatlandırılmışdır. 2013-2014-cü tədris ilində Ağköynək tam orta məktəbin biologiya müəllimi S.Əmirxanova ilin müəllimi adına layiq görülmüşdür. Ona 5 min AZN pul mükafatı verilmişdir. Rayonda yeni məktəblərin tikintisi də durmadan davam etdirilir. Cəbhə bölgəsində düşmənlə çox yaxın məsafədə yerləşən Balacəfərli və Məzəm kəndlərinin hər birində müasir standartlara cavab verən ibtidai məktəb tikilərək istifadəyə verilmişdir.

Sonda Nizaməddin müəllim qeyd etdi ki, Qazax təhsil işçiləri bundan sonra da daha əzmlə çalışaraq gənc nəslin təlim-tərbiyəsində yeni-yeni uğurlar əldə edəcəklər.

**Vəli VƏLİYEV,**
**"Respublika".**